# QADIN HAQQINDA DƏYƏRLİ KƏLAMLAR

- Bir ev torpağın üzərində yox,
qadın üzərində qurulur. (Türk məsəli)

- Sizin ən yaxşı övladlarınız – qızlarınızdır.
(İslam Peyğəmbər)

- Qadın qəhrəman yox, xoş
ətirli bir güldür. (Həzrət Əli)

- Ən qiymətliniz o kəsdir ki, xanımına qarşı
mehriban və güzəştlidir. (Həzrət Fatimeyi-Zəhra)

- Qadına sevgi peyğəmbərlərin
əxlaqıdır. (İmam Sadiq)

- Ağıllı qadınlar biliklər qurmuş,
Çarxın qulağını əfsunla burmuş. (N.Gəncəvi)

- Nüşabə: Erkək tinətliyəm,olsam da qadın.
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir aslanam, düşünsən bir az,
Aslanın erkəyi,dişisi olmaz. (N.Gəncəvi)

- Anıldıqca sənin sevgili adın,
Bulmuş kamalını şeirin hünəri.
Qarşında diz çökmüş, ey gözəl qadın,
Dünyanın ən böyük sənət ərləri. (Ə.Cavad)

- Qadın, qadın?! Onu duymaq, duyurmaq istərkən
Yaxar düşüncəmi bir şölə, bir zəhərli tikən
Bütün həyatı çiçəkləndirən fəqət o, neçin,
Neçin əzilsin o, bilməm neçin sürüklənsin?!
Qadın-günəş, cocuq-ay... nuru ay günəşdən alır
Qadınsız ölkə çapuq məhv olur, zavallı qalır
Qadın əlilə fəqət bəxtiyar olur bu cahan
O, bir mələk... onu təqdis edər böyük yaradan.
O, çox sevimli, gözəl, incə, nazlı bir xilqət,
Onun ayaqları altındadır fəqət cənnət.
Qadın gülərsə, bu issız mühitimiz güləcək.
Sürüklənən bəşəriyyət qadınla yüksələcək.
(H.Cavid)

- Bu qoca dünyada bir adət də var,
Qadın olan yerdə ədalət də var. (S.Vurğun)

- Necə rəhimlidir, necə amansız,
Necə mehribandır, qadın ürəyi!
Sən onu sındırsan bil ki, a qansız,
Ağlayan kamandır qadın ürəyi. (T.Bayram)

- Qadınsız cəmiyyətin bir gözü kor, bir qulağı kar, bir
ayağı çolaqdır. (M.Hadi)

- Qadınlara hörmət etmək elə borcdur ki, hər bir ləyaqətli
adam anadan olandan ona tabe olmalıdır. (Lope de Veqa)

- Qadınsız ev məzar kimidir (O.Balzak)

- Qadın gülürsə, bütün ev işıq saçar,
qaşqabaqlıdırsa, bütün evə qaranlıq çökür.
(Qədim hind aforizmi)

- Qadının xarici gözəlliyi deyil, namusu mənim
məhəbbətimə layiq ola bilər. (Şekspir)

- Qadının təmiz adı o qədər zərif şeydir ki, hətta ən kiçik
küləkdən belə qorunmalıdır. (Lefler)

- Qadınlar bəşər nəslinin ilk tərbiyəçiləridir.
(T.Hippel)

- O yerdə ki, qadına bir insan kimi hörmət yoxdur, o
yerdə mən yoxam. (N.Çernişevski)

- Qadının ağlı onun gözəlliyindədir.
(Ərəb atalar sözü)

- Qadın o qədər incə, o qədər zərif məxluqdur ki, onu
hətta gül yarpağı ilə də vurmaq olmaz.
(Hind aforizmi)

- Kişi aqressor, qadın konservatordur, ona
görə qadınlar kişilərdən çox yaşayırlar.
(A.Mirzəcanzadə)

- Ata övladından imtina edə bilər, hətta onun yanından
o, dünyada yoxmuş kimi ötədə bilər. Amma bunu ana
edə bilməz. (Averbax)

- Əgər qadını idarə etmək istəyirsənsə, ona tabe ol.
(Hüqo)

- Qadın kişinin tale yazısıdır, dayağıdır, həyatıdır.
(N.Həsənzadə)

- Həyatı qızıl gülə oxşatsanız, ətir hissəsi qadın, tikan
hissəsi kişidir. (Əlfəddin Abdullayev)

- Hər bir güclü kişinin arxasında qadın durur.
(İngilis məsəli)

- Təbiət qadına demişdir: bacarırsansa gözəl ol, istəyirsənsə müdrik ol, lakin sən hökmən ağıllı olmalısan.
(Bomarşe)

- Qadın həyatımızın əvvəli və sonudur.
Deyirlər, dörd xasiyyəti dörd canlıdan öyrənmək lazımdır: tez durmağı qarğadan, təmizkarlığı pişikdən, zəhmətkeşliyi arıdan, qənaəti qarışqadan. Bu sifətlərin dördü də əsl və gözəl qadına məxsusdur. Qadın həyatımızın əvvəli və sonudur. Ağzımızı açıb ilk damlanı – südü, həyatın dadını anadan-qadından aldığımız kimi, öləndə də son damla təsəllini də ondan alırıq. (A.Səhhət)

- Qadın gözəl olduğu qədər də namuslu olmalıdır, o,
yalnız namusu ilə təhlükəyə müqavimət göstərə bilər,
gözəlliyini təmizliyi ilə irəli apara bilər.
(Lessinq)

- Qadının ən yaxşı bəzəyi təbəssümdür. (Ş.İ.Xətai)

- Əsl sevgi qadınlara məxsusdur. (Gi de Mopassan)

- Qadınlar bizə həyat verirlər. (V.Putin)

- Həyatın məşəqqətlərinə dözmək üçün onu mütləq bir
qadınla bölüşmək lazımdır. (Müdriklərdən biri)

F.M.QARAYEV,
BDU-nun dosenti




# AtaNet üç dildə istifadəyə verildi

Bildiyiniz kimi, AtaBank-ın bütün əsas məhsulları ilə bağlı əməliyyatları AtaNet mobil və internet bank vasitəsilə təhlükəsiz və sürətli aparmaq mümkündür.




istifadəyə verilərək daha müştəriyönümlü oldu.
Artıq rus və ingilis dili sahibləri də AtaNet bankçılığa qoşularaq asanlıqla xidmətlərdən yararlana bilərlər.